# KİTABXANA SİSTEMLƏRİNİN QANUNAUYĞUNLUQLARI

ƏHMƏDOV E.Y.
*Bakı Dövlət Universiteti,*
*Kitabxanaşünaslıq kafedrasının müdiri, dosent,*
*pedaqogika üzrə fəlsəfə doktoru*

*Məqalədə kitabxana sistemlərinin qanunauyğunluqları və bu qanunauyğunluqların formalaşmasında mühüm rol oynayan elmi müddəalar öz əksini tapmışdır. Həmçinin burada mövcud kitabxana və şəbəkə sistemlərinin formalaşması qanunauyğunluqları təhlil edilmişdir.*
***Açar sözlər:*** *sistem, metod, elm, məkan, mentalitet, ənənə, kitabxana*

Azərbaycan milli kitabxanaşünaslığı informasiyalaşdırılmış cəmiyyətdə elmşünaslığın strukturuna daxil olmaqdadır. Tarixin inkişaf mərhələlərindən müasir dövrədək onun inkişaf yolu tədqiqata cəlb edilmişdir. Bu tədqiqatlarda sistemli yanaşma, tipoloji yanaşma, funksional yanaşma özünə əsaslı yer tutmuşdur. Məhz bunun nəticəsidir ki, müasir kitabxanaşünaslıq kitabxana sistemlərinin formalaşması və inkişafı qanunauyğunluqları ilə əlaqələndirilir.

Müasir elmi və praktik fəaliyyət inandırıcı şəkildə təsdiqləyir ki, cəmiyyətin maddi və mənəvi həyatında baş verən hadisə və proseslər ayrı-ayrılıqda, bir-birindən təcrid olunmuş formada deyil, qarşılıqlı əlaqədə və qarşılıqlı fəaliyyətdə mövcuddur və bütöv sistemli xarakter daşıyır. «Sistem» yunan sözü olub *(sustem)* bütöv, tam, hissələrdən təşkil olunmuş, birləşmiş mənasını ifadə edir. Sistem öz aralarında müəyyən münasibətdə və əlaqədə olan, bütövlük və vəhdət əmələ gətirən ünsürlərin məcmusudur. Sistem anlayışı, həmçinin tamlıqla, əlaqələrlə, ünsürlərlə, strukturlarla da əlaqədardır. Sistem həmişə fəaliyyət göstərdiyi mühitlə də bilavasitə əlaqədə olmalı, özünün tamlığını, bütövlüyünü mühütlə qarşılıqlı münasibətdə təzahür etdirməli və həyata keçirməlidir. Ona görə də müasir cəmiyyətdə baş verən hadisə və proseslərə sistemli yanaşma metodundan istifadə böyük elmi əhəmiyyət kəsb edir və təcrübəni elmi müddəalarla, metodlarla zənginləşdirir.

BDU-nun "Fəxri professor"u A.A.Xələfov qeyd edir ki, sistemli yanaşmanın əsas vəzifəsi mürəkkəb təşəkküllü obyektlərin, müxtəlif tipdən və sinifdən olan sistemlərin tədqiqi və qurulması metodlarının öyrənilməsidir. Məhz bu metodların öyrənilməsi sistemdaxili münasibətlərin aşkara çıxarılmasına, elmi təhlilinə, qarşılıqlı münasibətlərin tənzimlənməsinə və bir-birinə təsir mexanizminin müəyyənləşdirilməsinə kömək edir.

Məhz buna görədir ki, «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda əhaliyə kitabxana xidmətinin təşkilində kitabxana sistemlərinin yaradılmasına xüsusi diqqət yetirilmiş və bu məsələnin şərh edil-

məsinə ayrıca fəsil ayrılmışdır. Qanunun ikinci fəslində göstərilir: «Azərbaycan Respublikasında kitabxana sistemini ərazi, idarələrarası, sahəvi, sahələrarası və kompleks xidmət prinsipinə əsaslanan universal, ixtisaslaşdırılmış, dövlət və qeyri-dövlət kitabxanaları təşkil edir». Qanundan göründüyü kimi, respublikamızın kitabxana sistemi əsasən ərazi, idarəetmə, sahəvi və kompleks xidmət prinsiplərinə əsaslanan universal, ixtisaslaşdırılmış, dövlət və qeyri-dövlət kitabxanalarından ibarətdir. Qanunun respublika ərazisində fəaliyyət göstərən bütün kitabxanaların vahid sistemdə birləşdirilməsi haqqında maddəsi müasir dünya kitabxanaşünaslıq nəzəriyyəsinin əsas istiqamətlərini əks etdirir. Görkəmli kitabxanaşünas alim Ş.R.Ranqanatan yazır: «Biz indi kitabxana haqqında yox, kitabxana sistemi haqqında danışmalıyıq. Müasir zamanda ayrı-ayrı kitabxanalar yaratmaqdan yox, kitabxanalar sistemi yaratmaqdan söhbət getməlidir».

«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda kitabxana sisteminin tərkibi də müəyyənləşdirilmişdir. Qanunda göstərilir: "Azərbaycan Respublikasında kitabxana sisteminin tərkibinə dövlət və qeyri-dövlət kitabxanaları daxildir".

Dövlət kitabxanalarına aşağıdakılar daxildir:

- Milli Kitabxana;
- Naxçıvan Muxtar Respublikasının Dövlət Kitabxanası;
- Şəhər, rayon, qəsəbə, kənd kitabxanaları *(kütləvi, elmi, xüsusi kitabxanalar, gənclər, uşaqlar, korlar üçün və s. kitabxanalar)* və onların filialları, mərkəzləşdirilmiş kitabxana sistemləri; Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar; Dövlət idarə, müəssisə və təşkilatların kitabxanaları;
- Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası və onların filialları;
- Dövlət təhsil müəssisələrinin kitabxanaları;

Qeyri-dövlət kitabxanalarına aşağıdakılar daxildir:

- Bələdiyyə kitabxanaları;
- İctimai birliklərin kitabxanaları;
- Özəl və digər kitabxanalar:
- Xarici hüquqi və fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmiş kitabxanalar.

Göstərdiklərimiz bir daha təsdiq edir ki, cəmiyyətin müasir inkişaf mərhələsində sistem və sistemli yanaşma haqqında təlim cəmiyyətin, demək olar ki, bütün sahələrinə tətbiq edildiyi kimi bilavasitə cəmiyyətə, onun mənəvi tələbatına, cəmiyyət üzvlərinin informasiya tələbatının ödənilməsinə xidmət edən kitabxana işinə də tətbiq edilməlidir. Bəşəriyyətin informasiya əsri kimi dəyərləndirdiyi XXI əsrdə əhaliyə kitabxana xidmətinin təşkili, oxucuların durmadan artan informasiya tələbatının ödənilməsi, dünya informasiya sisteminə İnteqrasiya edilməsi, kitabxanaların internet sisteminə qoşulması on-





ların qarşısında çox mühüm vəzifələr qoymuşdur.

Məhz bu vəzifələrin həlli kitabxana sistemlərinin yaradılmasını və ümumiyyətlə, kitabxana işinin bütün sahələrinə sistemli yanaşma metodunun tətbiqini tələb edir. Bu, əsrin, zamanın tələbidir.

Beləliklə, müasir kitabxana işi təşkilinin və fəaliyyətinin əsasında sistemlilik və sistemli yanaşma metodu durmalıdır. Təsadüfi deyil ki, dünyanın bütün inkişaf etmiş ölkələrində kitabxanalar mərkəzləşdirilmiş, kooperativləşdirilmiş lokal, regional və ya milli səviyyələrdə birliklər, korporasiyalar yaradırlar ki, bunlar da kitabxana sistemləri adlanır. Kitabxana birliklərinin yaradılması, onların işinin əlaqələndirilməsi və inteqrasiya edilməsi vahid məqsədə xidmət göstərən sistemin yaradılması üçün əsas təminatdır.

Müasir şəraitdə sosioloqların, kitabxanaşünasların və informatiklərin apardıqları sosioloji tədqiqatlara və araşdırmalara əsaslanaraq, demək olar ki, elmin, istehsalatın, informasiya axınının və tələbatının qanunauyğunluqları belə bir nəticə çıxarmağa imkan verir ki, hər hansı bir regionda fəaliyyət göstərən heç bir kitabxana ayrılıqda öz oxucularının tələbatını ödəmək imkanına malik deyil. Buna onun nə maddi-texniki bazası, nə fondu, nə də ki, informasiya vasitələri imkan verir. Məlumdur ki, hər il nəşriyyatlar yüzlərlə adda böyük tirajlarla kitablar nəşr edirlər. Hər hansı bir kitabxananın imkanı olsa belə, bu kitabları almaq, saxlamaq, oxucuya vermək imkanı yoxdur. Belə imkan ancaq kitabxana sistemlərində ola bilər. Sistemə, kitabxana birliklərinə qoşulan hər bir kitabxana kitabxanalararası abonementdən istifadə yolu ilə öz oxucularının tələbatını ödəyə bilər.

Elmin, texnikanın istehsalatın, mədəniyyətin, təhsil sisteminin yüksək inkişaf etdiyi, elmi-texniki tərəqqi və mədəni inkişaf baş verdiyi bir cəmiyyətdə ayrı-ayrı kitabxanalar yox, kitabxana sistemləri yaratmadan keçinmək, cəmiyyətin kitaba, informasiyaya tələbatını ödəmək mümkün olmaz. Beləliklə, oxuculara kitabxana xidmətini təşkil etmək üçün düşünülmüş, məqsədyönlü kitabxana sistemləri, birlikləri yaratmaq, onların əlaqələndirilməsini və inteqrasiyasını təşkil etmək və bu işi ardıcıl olaraq təkmilləşdirmək, qabaqcıl ölkələrin iş təcrübəsini öyrənib kitabxana işinə tətbiq etmək zərurəti meydana çıxır.

Ölkəmizdə bazar iqtisadiyyatına keçid, bazar iqtisadiyyatının qanunauyğunluqlarının cəmiyyətin bütün sahələrinə, o cümlədən kitabxana işi, əhaliyə kitabxana xidməti məsələlərinə təsir göstərməsi şübhəsizdir. Bazar iqtisadiyyatı şəraitində kitabxanalara ayrılan vəsaitin azalması, kitabxana işinin bir çox sahələrində qənaətlərin aparılması, kitabxana xidməti prosesinin, ümumiyyətlə, kitabxana işinin təşkili, idarə edilməsi prosesinin yenidən qurulmasını tələb edir. Bu vəzifələrin yerinə yetirilməsinə kömək edən ən mühüm amil, dünya təcrübəsində sınaqdan çıxmış, böyük iqtisadi səmərəsi olan kitabxana sistemlərinin, birliklərinin, koorperasiyalarının yaradılması, onların arasında

elmi əlaqələrin təşkilidir. Sistemdaxili əlaqələr, tam və hissə arasında baş verən proseslər elmi cəhətdən əsaslandırılmış şəkildə, ardıcıl olaraq təhlil edilməklə ayrılıqda götürülmüş hər bir kitabxananın vəzifələri müəyyənləşdirilməlidir.

Beləliklə, müasir şəraitdə kitabxana sistemlərinin formalaşması prosesinin məqsədyönlü təşkili kitabxana resurslarının *(sərvətinin)* yaradılmasının və əhaliyə kitabxana xidmətinin təşkil edilməsinin qanunauyğunluqlarının elmi əsasıdır.

BDU-nun "Fəxri professor"u A.A.Xələfov qeyd edir ki, əhaliyə kitabxana xidmətinin təşkilinə sistemli yanaşma metodunun tətbiqi bilavasitə cəmiyyətin ümumi qanunauyğunluqlarına, cəmiyyətdə baş verən iqtisadi, siyasi və mədəni münasibətlərə əsaslanmalı, bu münasibətlərdən doğan vəzifələrin həyata keçirilməsinə yönəldilməlidir. Bu münasibətlər arasında baş verən qarşılıqlı prinsiplər onların özülü, bünövrəsi olmalıdır.

Müstəqillik şəraitində, ölkəmizdə bazar iqtisadiyyatına keçid dövründə müasir cəmiyyətin iqtisadi, siyasi, mədəni və mənəvi həyatında böyük və dərin köklü dəyişikliklərin meydana çıxması yeni münasibətlərin baş verməsi ilə müşayiət olunur. Məlum həqiqətdir ki, bazisdə baş verən dəyişikliklər üstqurumda da öz əksini tapmalı, cəmiyyətdə baş verən proseslər üstquruma uyğunlaşdırılmalıdır. Məhz buna görə də, bazar iqtisadiyyatı şəraitində kitabxana sistemləri formalaşdırılarkən iqtisadi münasibətlər mühüm rol oynayır. Bu da öz növbəsində kitabxana işi iqtisadiyyatının dərindən öyrənilməsini, bu sahədə də elmi araşdırmalar aparılmasını, kitabxana iqtisadiyyatı kursunun yaradılmasını, kitabxana işinin bütün sahələrinə iqtisadi prinsiplərin tətbiq edilməsini tələb edir. Keçmiş sovet məkanında uzun illərdən bəri kitabxana iqtisadiyyatının öyrənilməsinə diqqət yetirilməməsi, kitabxana xidməti prosesinin təhlilində ondan istifadə edilməməsi kitabxana təcrübəsinə, kitabxana işinin iqtisadi səmərəliliyinin təhlilinə olduqca mənfi təsir göstərmiş, kitabxana işinin perspektivlərinin öyrənilməsini elmi əsaslardan məhrum etmişdir. Dünya təcrübəsindən məlumdur ki, bu və ya digər regionda əhaliyə kitabxana-informasiya işinin səmərəli təşkili həmin regionun iqtisadi inkişafına olduqca müsbət təsir edir, əmək məhsuldarlığını artırır, iqtisadi tərəqqiyə səbəb olur. Buna görə də kitabxana iqtisadiyyatına ölkə iqtisadiyyatına təsir göstərən amillərdən biri kimi diqqət yetirilməli, onun səmərəliliyi, forma və üsulları elmi əsaslarla təhlil edilib öyrənilməli, ümumiləşdirilmələr aparılmalı, tövsiyələr hazırlanmalıdır.

Kitabxana sistemlərinin yaradılması və sistemlərin iş prosesinin qarşılıqlı əlaqələndirilməsi kitabxana - oxucu münasibətlərində yeni etik prinsiplərin meydana gəlib formalaşması üçün əlverişli şərait yaradır. Bu prinsiplər kitabxanaların sistemlərarası və sistemdaxili intensiv, ardıcıl və dinamik fəaliyyətindən doğan «qarşılıqlı əlaqə» və «qarşılıqlı təsir» prinsipləridir. Bu





etik prinsiplərin məntiqi ardıcıllıqla kitabxana işinə tətbiqi kitabxanaçı-oxucu münasibətlərinin yeni qaydada formalaşması, yeni çalarlarla zənginləşməsi, daha rəngbərəng olması üçün də şərait yaradır. «qarşılıqlı əlaqə» və «qarşılıqlı təsir» prinsipləri ayrı-ayrı prinsiplər olsa da, bunların birinin digərinə qovuşması, birlikdə fəaliyyət göstərməsi kitabxananın yeni iş formaları və metodları ilə zənginləşməsinə, kitabxanada oxuculara kitabxana və informasiya xidmətinin səmərəliliyinin artmasına səbəb olur. Kitabxanalar arasında yaranan qarşılıqlı əlaqələr dərinləşdikcə, kitabxanaların işi daha güclü inteqrasiyaya məruz qaldıqca kitabxana xidmətinin təşkilində daha mürəkkəb proseslər baş verir, yeni münasibətlər formalaşır ki, bunlar da qarşılıqlı təsir prinsipinin formalaşmasını təmin etmiş olur. Beləliklə, bu prinsiplər bir-biri ilə əlaqədardır, bir-birindən asılıdır, bir-birinin formalaşması, fəaliyyət göstərməsi üçün şərait yaradır. Məhz buna görədir ki, müasir şəraitdə bu etik prinsiplərdən istifadə etmədən əhaliyə kitabxana xidmətinin müasir problemlərini həll etmək, kitabxana-informasiya xidməti sahəsində baş verən proseslərin qanunauyğunluqlarını dərk etmək çətinlikləri ortaya çıxa bilər.

Bütün bunlar bir daha təsdiq edir ki, müasir şəraitdə respublikamızda əhaliyə kitabxana-informasiya xidmətini dövrün, zamanın, informasiyalaşdırılmış cəmiyyətin tələbləri səviyyəsində təşkil etmək üçün kitabxana sistemləri yaratmadan, onların işini səmərəli elmi əsaslarla təşkil etmədən mümkün deyildir. Ölkəmiz müstəqillik əldə etdikdən, cəmiyyətimiz bazar iqtisadiyyatına keçdikdən sonra keçmiş sosializm quruculuğundan bizə miras qalmış kitabxana sistemlərinin işini yenidən qurmaq, əhaliyə kitabxana-informasiya xidmətini dünya standartları səviyyəsinə yüksəltmək üçün çox böyük elmi təcrübi və təşkilati tədbirlər həyata keçirmək vəzifəsi qarşıya çıxmışdır. Bu da hər şeydən əvvəl milli kitabxana sisteminin yaradılmasını tələb edir.

Milli kitabxana sistemi ölkənin sosial, iqtisadi, mədəni, siyasi inkişafına, milli mənafelərinə və elmi-texniki tərəqqiyə xidmət etmək üçün ölkə miqyasında yaradılmış vahid ümumdövlət təşkilat olan bütün kitabxanaların *(tabeliyindən, şəbəkəsindən, tipindən və növündən asılı olmayaraq)* məcmusudur. Bu anlayışda kitabxana işinə baxışda ictimai hadisə, kütləvi kommunikasiya vasitəsi kimi yeni münasibətlər öz əksini tapmışdır. Müasir dövrün tələbi kimi meydana çıxan bu münasibəti inkişaf etdirmək üçün respublikamızda milli kitabxana sistemlərinin yaradılması zərurəti meydana çıxır. Ölkəmizdə sosial-iqtisadi və mədəni inkişafın geniş vüsət alması, əhalinin bütün təbəqələri arasında fasiləsiz təhsilin təşkil edilməsi, dövlət miqyasında dünya standartlarına uyğun təhsil və elmi islahatların həyata keçirilməsi, cəmiyyət üzvlərinin kitabxana-informasiya xidmətinə böyük tələbatının əmələ gəlməsi və peşə marağının daha da artması, kitabxana sistemlərinin təkmilləşdirilməsi kitabxana işi sahəsində müstəqillik şəraitinə müvafiq islahatların aparılmasını tələb edir.

Son illərdə cəmiyyətin strukturunda böyük dəyişikliklərin baş verməsi, onların hazırda fəaliyyət göstərən kitabxana şəbəkələri və sistemlərində öz əksini tapmaması, bu islahatların zəruriliyini bir daha artırır.

Kitabxana işi sahəsində islahatlar aparmaq üçün islahat konsepsiyası yaradılmalı, müzakirə edilib dövlət tərəfindən təsdiq edildikdən sonra ölkə miqyasında həyata keçirilməlidir. Ölkəmizdə keçid dövrünün çətinliklərinin bu islahatların həyata keçirilməsini müvəqqəti olsa da çətinləşdirməsinə baxmayaraq, az da olsa yeniləşmə prosesi davam edir, islahatları aparmaq üçün elmi-metodik və iqtisadi baza yaradılır.

Doğrudur, müasir kitabxana sistemlərinin yaradılması problemlərinin həllində dünya kitabxanaşünasları arasında vahid fikir olmadığından müxtəlif nöqteyi-nəzərlər mövcuddur.

Bir qrup kitabxanaşünaslar kitabxana sistemləri yaratmağın vahid beynəlxalq modelini hazırlamağı və bu modelin bütün ölkələrdə tətbiq edilməsini təklif etdikləri halda, digər qrup kitabxanaşünaslar milli kitabxana sistemlərinin yaradılmasına üstünlük verirlər. Hər iki nöqteyi-nəzərin özünəməxsus üstünlükləri olmasına baxmayaraq, milli kitabxana sistemləri yaradılması ideyası daha məqsədyönlüdür, daha mütərəqqi, daha demokratik xarakter daşıyır. Belə ki, kitabxana sistemlərinin yaradılması bir çox komponentlərlə: ölkənin strukturu, maddi-texniki bazası, inkişaf səviyyəsi, yerli şəraiti, milli xüsusiyyətləri və sairlə əlaqədar olduğundan, vahid kitabxana sistemi modeli yaratmağın məqsədəmüvafiq olmadığını, böyük çətinliklərlə müşayiət olunacağını aşkara çıxarır. Ona görə də son zamanlar milli kitabxana sistemlərinin yaradılmasının tərəfdarları xeyli çoxalmış, dünya dövlətlərinin əksəriyyətində ölkənin yerli şəraitinə, milli xüsusiyyətlərinə, strukturuna, inkişaf səviyyəsinə müvafiq milli kitabxana sistemlərinin yaradılmasına üstünlük verirlər ki, bu nöqteyi-nəzərin məqsədəuyğun olmasına şübhə qalmır. Ona görə də gələcəkdə ölkəmizdə milli kitabxana sistemlərinin yaradılmasına üstünlük vermək daha düzgün olar. Milli kitabxana sistemi yaradılarkən dünya praktikasından, qabaqcıl ölkələrin kitabxana sistemlərinin yaradılması sahəsindəki mütərəqqi ideyalarından və təcrübələrindən istifadə etməklə, yerli şərait, milli mentaletitimiz, tarixi ənənələrimiz, xalqımızın xarakterik xüsusiyyətləri və psixologiyası nəzərə alınmalıdır. Ölkəmizin tarixində kitabxana sisteminin yaradılması sahəsində əldə edilmiş nəticələrdən və müasir beynəlxalq təcrübədən istifadə edilməlidir.

Hazırda Azərbaycan milli kitabxanaşünaslığının təcrübi fəaliyyət sahəsi olan kitabxana – informasiya prosesləri sistemli formada nəzəri müdəalardan bəhrələnərək cəmiyyətin informasiyalaşdırılmasında xüsusi aktuallıq kəsb edir.





## ƏDƏBİYYAT

1. *A.A.Xələfov. Kitabxanaşünaslığa giriş: Dərslik. III hissə.-Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003.-314 s.*

2. *A.A.Xələfov. Kitabxanaşünaslığın tarixi və metodologiyası. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2014, 552 s.*

3. *Əhmədov E.Y. Azərbaycanda kitabxana informasiya işinin hüquqi bazası: Dərs vəsaiti, B.: Bakı Universiteti nəşriyyatı, 2012, 216 s.*

## ЗАКОНОМЕРНОСТИ БИБЛИОТЕЧНЫХ СИСТЕМ

**АХМЕДОВ Э.Ю.**

### *РЕЗЮМЕ*

*В статье рассматривается и анализируются основные научные положения: закономерности, формирования библиотечных систем и их существующих сетей.*

***Ключевые слова:*** *система, метод, наука, пространство, менталитет, традиции, библиотека.*

## REGULARITIES OF LIBRARY SYSTEMS

**AHMADOV E.Y.**

### *SUMMARY*

*The article discusses and analyzes the basic scientific principles: regularities, the formation of library systems and their existing networks.*

***Keywords:*** *system, method, science, place, mentality, traditions, library.*